

# Gül balam, öyrətmə gülə könlümü

***...Ömrünün 55 ilini arxada qoyan gözəl şair Xəqani Həbiboğlunun əvvəlcə sözünü sevdik, sonra özünü... Daha sonra da Kəlbəcər həsrətini sevdik onun. Bu ƏLLİ BEŞin otuz ili Kəlbəcər ağrısının, Kəlbəcərhəsrətinin ağuşunda keçdi. Kimin ağlına gələrdi ki, hansısa bir zaman kəsiyində Vətənin bir parçasını uzaqdan-uzağa, bir az da xəyali sevməyə məhkum olacağıq.***

Xəqani Həbiboğlu da uzun illər sözünün şəhdini, şirəsini çəkən, hər misrasının nüvəsində dayanan Kəlbəcəri beləcə uzaqdan-uzağa sevdi (elə hamımız kimi) ... Kəlbəcərin səmasında əsən küləyini, çöllərinə yağan yağışını, şaxtada donan taleyinisevdi. Ruhunu, könlünü gülə, çiçəyə öyrəşdirmədi. İstəsə də bacara bilməzdi. Çünki düşmənin soyuq nəzərləri altında illərlə o torpaqlara yaz gəldimi, biləmmədik:

**Hansı bənövşəni şoran gözləyir...**<br>
**Sanma Xaqanini aran gözləyir!**<br>
**Dəlidağda dəli boran gözləyir,**<br>
**Gül balam, öyrətmə gülə könlümü!**

Dünyanın işdəklərinə bax... Bir zamanlar o taylı, bu taylı Azərbaycanın həsrətini yazan şair ürəyi indi Vətəndə Vətən həsrətinin yazırdı:

**Ürəyimdən yeyər, gözümdən içər,**<br>
**Qaranquşla dönər, durnayla köçər.**<br>
**Dünən Təbriz idi, bu gün Kəlbəcər,**<br>
**Dəyişir ünvanı, adı həsrətin.**

Bu həsrətin içində Xəqani Kəlbəcərdə xəyali boş qəbirinin olduğunun da fərqində idi. İnsan ömrünün ölüm-qalım fərmanının Yaradanın əlində olduğunu bildiyindən, yerdən-göydən onun sorağını gözləyirdi:

**Daş da çatlayır səbrimə,**<br>
**Dayanıb,durub xətrimə.**<br>
**Girimmi doğma qəbrimə,**<br>
**Allahdan əmr necədi?**

Hər şey otuz il beləcə qaldı... Ta 44 günlük zəfər savaşına kimi. O savaşa ki, Azərbaycanın igid əsgərlərinin sorağını bütün dünyaya car çəkdi. O savaşa ki, bir qolu da savaşa bərabər danışıqlardan keçdi və Kəlbəcərdə bu uğurların sayəsində öz sahibinə qovuşdu.

***Bir dəfə onun haqqında demişdim ki, Xəqani Həbiboğlu gözlə görünməyən, rənglərlə çəkliməyən bu mücərrəd duyğunun - sevginin şəklini SÖZlə çəkir... O, yaxşı bilir ki, bütün mücərrədlərin sözlə ifadə olunan bir izahı var. İllah da ki, sevgi kimi mücərrədin... Dünyanı ayaqda, aşiqi bəlada, Vətəni ürəkdə saxlayan SEVGİnin...***

***O sevgidir Xəqani Həbiboğlunu əlli beş ilin o başından bu günə kimi gətirib və otuz ildən çoxdur ki, bizlərə sevdirir. Və həmişə də sevdirəcək...***

**Vasif SÜLEYMAN**